# Azərbaycan sülhə və inkişafa töhfə verən səylərini davam etdirir

## Ölkəmiz BMT tarixində bir ilkə imza atmışdır

***Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən – Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda təqdim edilən çıxışından***
***Bakı, 23 sentyabr 2021-ci il***



***Prezident İlham Əliyevin beynəlxalq tədbirlərdəki nitq, çıxış və debatlardakı cavabları həm auditoriya, həm də dünya mətbuatı üçün bir neçə cəhətdən maraqlı olur. Əvvəla, ona görə ki, Azərbaycan Prezidenti həmişə, hamı ilə səmimi danışır. Onun bütün arqumentləri fakta və həqiqətə əsaslanır. İkinci, o, nəinki beynəlxalq auditoriyaya, siyasi və ya diplomatik müzakirələrdə iştirak edən həmkarlarına, hətta müsahibə verdiyi jurnalistə, həmsöhbət olduğu sadə vətəndaşa da ehtiramla yanaşmağı bacarır. Üçüncü cəhət isə odur ki, dövlət başçımız həmişə ədalətli mövqe nümayiş etdirir. Bu gün beynəlxalq aləmdə ikili standartlar davam etsə də, insanların mütləq əksəriyyəti ədalətli çıxışlara maraq və hörmətlə yanaşırlar.***

Sentyabrın 23-də məlum oldu ki, dövlət başçımızın çıxış və nitqlərinin maraqla qarşılanmasının başqa bir səbəbi də onun öz mülahizələrini auditoriyaya təqdim etmək üçün seçdiyi formalardır. Məsələn, o, BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrində Ermənistan rəhbərliyinin Azərbaycana qarşı törətdiyi 27 sentyabr 2020-ci il tarixli təxribatından söz açmazdan əvvəl başqa bir məqamı yada saldı: “Ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışım zamanı mən sizin diqqətinizi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinə və Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltdim. Bu gün qürur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu”.

Yəni dövlət başçımız dünya ictimaiyyətinə xatırlatdı ki, münaqişənin son iki ili ərzində Ermənistan qəsdən danışıqlar prosesini məhv edirdi. İrəvan rəsmiləri son illər həyasızcasına “Qarabağ Ermənistandır və nöqtə”, yaxud “bir qarış belə işğal olunmuş torpaq qaytarılmayacaq” kimi çoxsaylı təxribatçı bəyanat və hərəkətlərə yol verirdi: “Ermənistanın o vaxtkı müdafiə naziri açıq şəkildə Azərbaycanı yeni təcavüz və yeni işğal ilə hədələdi. Ermənistan qəbuledilməz və əsassız “yeddi şərt” irəli sürərək, danışıqlar formatının dəyişdirilməsi, danışıqlara sıfırdan başlanılması və Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə yaradılmış qondarma rejimin danışıqlar prosesinə cəlb edilməsini tələb etdi”.

Nəticədə isə təkcə Ermənistan dövləti, ordusu və xalqı rəzil olmadı, həm də İrəvan rəhbərliyinin məsuliyyətsiz və təhlükəli hərəkətləri səbəbindən fəaliyyəti iflic olmuş ATƏT-in Minsk qrupunun həmsədrləri üçün xoşagəlməz sürpriz oldu. Qətiyyətlə deyə bilərik ki, ATƏT-in Minsk qrupunun bu dərəcədə hörmətsiz və nüfuzsuz vəziyyətə düşməsinin bir səbəbi həmsədrlərin özlərinin qətiyyətsizliyi idisə, daha böyük səbəbi işğalçı ölkənin nazı ilə oynayan qüvvələr idi. Yoxsa Ermənistan təkbaşına özü Minsk qupunu bu dərəcədə yüngülsaqqal edə bilməzdi.

Mən bir sadə azərbaycanlı kimi fəxrlə deyə bilərəm ki, Azərbaycan Prezidenti BMT tribunasındankı bütün çıxışlarında bu mötəbər beynəlxalq təşkilatın ünvanına tənqidi fikirlər də səsləndirib. Onun “BMT-nin fəaliyyətində islahatlara ehtiyac var” ifadəsini dəfələrlə təkrar etməsini və “BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, bizə gəldikdə 27 il icra olunmamış qaldı” iradlarını heç kəs unutmur.

Dövlət başçımız bu çıxışında da BMT rəsmilərinə bəzi məqamları növbəti dəfə təqdim etdi: “ BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin Ermənistan bu və BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bənzər qərarlara məhəl qoymamışdır... Selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var”. Təbii ki, Ermənistanın bu həyasızlığının kökündə dayanan əsas məsələ dünyada hökm sürən ikili standartlardır.

Həm BMT rəsmilərinin, həm Minsk qrupu həmsədrlərinin, həm də hamının yadındadır ki, münaqişə dövründə Ermənistan öz yanaşması və hərəkətləri ilə onun yeganə məqsədinin status-kvonu saxlamaq və işğalı möhkəmləndirmək olduğunu gizlətmirdi. Azərbaycan Prezidenti dəfələrlə Ermənistana qarşı sanksiyaların tətbiq edilməsinin vacibliyi məsələsini qaldırmışdı. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etmək üçün Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilmədi. Amma vaxtında Ermənistanı düz yola qaytarmaq istəyən olsaydı, bu işğalçı ölkə indiki rəzil və xəcil günlərini yaşamazdı.

Dövlət başçımızın bu çıxışını istənilən azərbaycanlı üçün tarixi edən başqa bir məsələ isə o idi ki, Prezidentin xatırlatdığı kimi, Azərbaycan ötən il BMT-nin yaranmasından bəri heç bir ölkənin atmadığı bir ilkə imza atmışdır: “ Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən – Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır”.

Həmin fakt təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etmədi, həm də Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Prezident BMT tribunasından dünya ictimaiyyətinə bir daha bəyan etdi ki, Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur: “Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram”.

Yəni Qarabağ Azərbaycandır, vəssalam!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***